

*Baba BABAYEV*

*(hekayə)*

# QURBANLAR

İş vaxtına yarım saatdan çox qalardı. Gələn zəngə telefonu açdım. Şöbənin professoru Bədəlbəyli idi. Özünü narahat hiss etdiyini bildirdi. Mənsə, narahat olma, professor, özünüzü həkimə göstərin, - deyib təsəlli verdim.

Bədəlbəyli şöbədə yox, institutda ehtiram göstərilən, ədəb-ərkanı, istedadı ilə fərqlənən alimlərdəndi. Heç nə iddiasında olmayan ziyalı bir şəxsiyyət idi.

Axşamüstü işdən sonra yolüstü halını soruşmaq üçün onlara getdim. 2-ci mərtəbədə Xruşşovka binalarında olan mənzilinin qapısı azacıq aralı idi. Zəngi basmağa ehtiyac qalmadı, xanımı, hə, professor Qədirli, xoş gəlmisiniz, buyurun içəri keçin, - dedi. Bədəlbəyli divanda oturub öz-özünə qəribə hal almış kimi gülürdü. Məəttəl qaldım, onun gülməyi çox təsadüfi hallarda olardı. Otuz ildən çox idi ki, bir şöbədə işləyirdik. Təəccübümü gizlədə bilmədim, ay kişi, nə əcəb səndən, xeyir ola, bu nə kef-damaqdır?

Hə, Qədirli, nə əziyyət çəkmisən belə? Ay xalası göyçək, yaxın otur, gör bu zamanada nələr baş verir. Səriyyə xanım kəklikotlu bir pürrəng çay gətirsin, içə-içə söhbət edək. Görək dünyada nə var, nə yox? Bədəlbəyli yenə başını aşağı salıb dalğın-dalğın, dəli olmuş kimi gülməyə başladı. Şübhələndim, bu kişiyə nə olub, görəsən başı xarab olub? O, ciddi, intizamlı, dəmir xaraktera malik, çox zəhmətkeş bir tənqidçi-ədəbiyyatşünasdı.

Oktyabr son günlərini yaşayırdı. Elə bil yazın oğlan çağı idi. Soyuq günəş əməlli-başlı adamı haldan salırdı.

Tay-tuş olduğumuza görə xırda zarafatlar da edirdik.

– Hə, yoldaş qırmızı kommunist, Siz Allah, xeyirdi belə, niyə gülürsünüz?

– Qədirli, gülünc günə qalmışıq, gülməli nədir ey, vay-şüvən qoparılmalıdır, ağlamalıdır. Bu dövlətə qırx altı ildir ki, xidmət edirik. Ata-bablarımız da həmçinin. Bu üzü dönmüşlər öküzü qaldırıb altından bala istəyirlər. Dıradıra adlı quşun balalarına etdiklərini edirlər. Ə Qədirli, Allah elə bil bunların etdiklərini görmür, "görəcəyi", nəzarətdə saxladığı kasıbkusublar, fəqir-füqəralar, bir də bizim kimi iynə ilə gor eşib çörək qazananlardır. Klassik yunan filosofu hər kim imişsə düz deyirmiş ki, "yazarlar Tanrı cəzasını çəkənlərdir". Allah bizlərdən nə istəyir? Bədəlbəyli tıncıxmışdı. Sakitləşdirmək istədim, özündə deyildi.

– Hə, Qədirli, üç gün əvvəl oğlum rayondan zəng vurdu ki, rəhbərlik mənə təkid edir ki, nə qədər şöbə müdiri işləyəcəksən, sənədlərini hazırla, təqdimat məktubu da verirəm, yuxarı demişəm işgüzarlığını, dövlətə sədaqətini bilirlər. Həttа atanı da tanıyırlar. Get müavinliyə təsdiq olub gəl.

– Dedim ki, oğul, xatirinə dəyməsin, bunlardan gözüm su içmir, bizə lazım olan iş deyil, qorxuram mənim başıma gətirdiklərini sənə də edələr. Bunların iş prinsipi göz qarşısındadır. Oğlumun ani susması məni narahat etdi. Bilirsən Qədirli, həyat təcrübəm çoxdur. Bir oğuldur, neyləyim?

Səhəri günün ikinci yarısında sevincək içəri girdi, anasını qucaqlayıb bağrına basdı. Bir fincan çay içib sənədləri olan papkanı lazım olan yerə apardı. Bildiriblər ki, heç yana getmə, gözlə, qəbula çağırılacaqsan. Aparatın rəhbəri də ədalətli bir dövlət xadimi idi. İki gün əvvəl başqa işə göndərilmişdi. Ani boşluqdan istifadəyə can atanlar vardı. Əlinə fürsət düşən qapazlamağa çalışırdı. Dişi qana batmış canavara dönmüşdülər. Etdikləri yırtıcılıq, haqsızlıq və qeyriadi hər evdə danışılırdı.

Səhəri gün günortaya yaxın telefon zənginə cavab verən oğlumun birdən rəngi qaraldı, sonra avazıdı, kim idisə çox danışdılar. Hannan-hana danışığını qurtarıb, icra başçısı idi, - dedi. Aparatdan şöbə müdiri ona göstəriş verib ki, təcili onun ərizəsini alıb faksla ötür mənə. Birincinin əli üzündə qalıb, bu nə oyundu, bu kişi nə deyir belə? Yarım saatdan sonra bir də zəng vurub ki, onun ərizəsini aldın? Yazıq oğlum otuz səkkiz yaşına təzə keçmişdi, On beş il idi ki, rayon icra hakimiyyətində şöbə müdiri işləyirdi. Hələ Prezident aparatı xətti ilə İctimai Elmlər Akademiyası deyilən məktəbi də oxutmuşdu. Gənc iki təhsilli əlli min əhalisi olan rayonda barmaqla göstərilən şəxsiyyətli bir kadr idi. Ay Qədirli, mən atası da bunlara nə qədər qulluq etmişəm? Babası üç seçki Ali Sovetin deputatı olub, ölkədə, hətta vaxtilə rəhbərliyinin şəxsən tanıdığı, iki Lenin ordeni, Qırmızı əmək bayrağı, Oktyabr, Xalqlar Dostluğu kimi keçmiş SSRİ-nin ən nüfuzlu ordenlərinə layiq görülüb. Otuz iki il Rayon Partiya Komitəsinin büro üzvü, MK-nın üzvü olub. Xeyirxah, insanlara əl tutan, körpü tikdirib yol çəkdirən, kasıbların xeyir-şərini yola verən tanınmış, əli qabarlı təsərrüfat adamı idi.

Qədirli, bu nə yerə, nə də göyə sığan bir işdir. Elə bil bu idarəetmədə işləyən məmurlar insanları talan edib dizlərini yerə qoymaqdan, bir tikə çörəyə zəlil etməkdən ötrü hakimiyyətə gəlirlər.

– Bədəlbəyli, - deyə, Qədirli soruşdu: Nə oldu, katib ağ ev funksionerinin sözünə əməl etdi?

– Bəli, hələ deyib ki, beş min manat da pul verməlidir. Deyərsən ki, pulu verməsə əsil-nəcabətinin kökünü kəsəcəm.

– Bədəlbəyli, bu idyot niyə sizin uşağınıza qarşı belə hərəkət edir? Onu tanıyırdı?

– Qədirli, universiteti bir oxuduğum tələbə yoldaşım həmin idyotla bir şöbədə işləyir, qarı düşməndirlər, bir-birinin başını kəsməyə, diri-diri yerə basdırmağa hazırdırlar. Mən neçə on illərdir ki, ədəbi tənqidlə, ədəbiyyatşünaslıqla əlaqədar televiziya kanallarında və ya ölkənin jurnal və qəzetlərində çıxış edirəm. Ağ evdəki funksioner də bütün bunları bilirmiş. Oğlum da tələbə yoldaşımın qurbanı oldu. Bir "idyot" məmur bir gəncin parlayan gələcəyinə beləcə son qoydu. Dörd məktəbli uşağı (bir oğlan, üç qız) neyniyəcək? Bunlara çörəyi kim verəcək? Oğlum stresdədir, bütün bir gün - 24 saat ərzində bir qurtum su da içməyib. Anasının keçirdiyi hisslərə, sarsıntıya (yazıq arvad ağır ürək xəstəsidir), göz yaşlarına nə deyəsən?

– Bədəlbəyli, bu gün Orxanın ərizəsini alacaqdılar, nə oldu?

– Aldılar, pulumuz olmadığı üçün həyətdə sağılan inəklərimizin üçünü satıb pulları da başçıya verib ki, ötürsün zalım, ev yıxıb qan tökənlərə.

– Professor, sizə çox böyük, həm maddi, həm də mənəvi zərbə dəyib. Ermənilər xocalılara belə sitəm etməmişdilər. Məni bağışla, indi bildim ki, siz niyə və nəyə gülürsünüz. Siz Allah məni bağışlayın! Allah bu zülmü yerdə qoymaz. Yaradanın səbri çoxdur.

– Bədəlbəyli, əziyyət deyilsə, söhbətinizin əvvəlində dediniz ki, ay oğul, mənim başıma gətirdiklərini sənə də edərlər. Bu nə deməkdir? Sənin başına nə oyun gətiriblər? Sən hansı müsibətli həyatı yaşamışdın ki, sən də, oğlun da qurbana çevrildiniz?

– Hə, çox da uzun illərin hadisəsi deyil. Yeddi-səkkiz il bundan əvvəl möhkəm xəstələnmişdim. Bakı həkimlərimiz dərdimə çarə tapa bilmədilər. Moskvaya getdim, bütün analizləri verəndən sonra konsultasiya keçirib son qənaətə gəldilər ki, yaşadığın məkanı dəyişməlisən. Açığı bildirdilər ki, Bakıdan təcili olaraq doğulduğun məkana köçməlisən, ya da az bir vaxtda həyatla vidalaşacaqsan. Sarı qulaq göy gözlər qəti fikir dedilər. Bir neçə gün Bakıda qalıb İrana-Təbriz həkimlərindən imdad diləməyə getdim. Arzularımın, xəyallarımın möcüzəli şəhəri olan Təbrizə birinci dəfəydi ki, gedirdim. Biləsuvar sərhəddindən 384-400 kilometr məsafədə yerləşən, rəngbərəng dağların ətəkləri və sıldırımları ilə şütüyərək gedən maşınımız Təbriz qapısından girəndə özümü saxlaya bilməyib ağladım. İş yerimdə - Elmlər Akademiyasında mənə demişdilər ki, mərhum şərqşünas alim Həmid Məmmədzadənin bacısı oğlu Məhəmməd Almaniyada elmlər doktoru dərəcəsini alıb Təbrizdə işləyir. Amerikanın hansısa bir ştatında stajrovka da keçmişdir. Oteldə yerbəyer olduqdan sonra Məhəmmədin işlədiyi klinikaya getdim. Çox isti, mehriban, 45-47 yaşlarında, sadəcə çox gənc görünən bu qıvraq, gülərüz oğlandan nə qədər mehr-ülfət gördüm. Son nəşr kitablarımdan ikisini hədiyyə aparmışdım. Çox sevindi, mərhum dayısının istedadı, Azərbaycan ədəbiyyatşünaslığı, İran-Azərbaycan elmi əlaqələri üçün çox işlər gördüyünü etiraf etdim. Dörd gündən sonra bütün analizlərə baxıldı, yeddi nəfər həkim bir araya gəlib bildirdilər ki, xırda, müalicə olunası xəstəliklərin var, lakin yaşayış yerini dəyişib doğulduğun məkana getməlisən. İki-üç ildə aldığım bütün müalicələrə də diqqət yetirildi. Hətta Moskva həkimlərinin rəylərinə də baxdılar və Moskva ilə Təbrizlilərin fikirləri üst-üstə düşdü.

Bakıya qayıdan kimi bütün ailə kəndə - evimizə qayıtmağımı təkidlə tələb etdi.

Rektor xanıma əhvalatı danışdım. Düz on il idi ki, onun rektor olduğu institutda şöbə müdiri işləyirdim. Allah rizasına deyim ki, xatirini həddən ziyadə çox istəyirdim. Elmi sovetin üzvü olmaqla iki dəfə təltif olunmuşdum. Təbii ki, məni itirmək istəmirdi. Xəstəliyim - Bakının havasının mənə düşməməsi rektoru da çıxılmaz vəziyyətdə qoydu. O, dərindən ah çəkib məni dəniz gözləri ilə düşünərək dərindən süzdü. Ani sükutdan sonra:

– Sizin rayonda texnikom yox, institut yox, elmlər doktoru gedib rayonda neyləyəcəksən? Bəlkə yuxarılarla danışım, rayonda uyğun bir işlə təmin edərlər. Sözünün ardınca, gəl belə edək, iki-üç günə məzuniyyətə çıxacaqsan. Yalta tərəflərin havası çox yaxşıdır. Bütün yayı orada dincələrsən, qayıdana qədər Allah kərimdir.

– Nə deyirəm, xanım, siz deyən olsun, - dedim.

İki gündən sonra təyyarə çamadanımı hazırlayır, yol tədarükü görürdük. Qızım hər şeyi yerli-yerində etdikdən sonra, ata, təzə kostyumunu da geyin, baxım, sonra rahat olaram. Elə bu vaxt ev telefonunun zəngi hər ikimizin söhbətini yarımçıq kəsdi. Təhsil naziri sizi gözləyir, təcili gəlin, - dedilər. Əynimdəki təzə kostyumla evdən çıxdım, həyətdəki taksilərin birinə oturub nazirliyə getdim.

Nazir məni çoxdan tanıyırdı, siyasi məsələlərlə yanaşı on il dekan, ondan əvvəl universitetdə kafedra müdiri, tədris işləri üzrə birinci prorektor işləməyimi, ən əsası da şəffaf, əli təmiz, tələbələrin sevimlisi olmağımı bilirdi. Ayıq, xalq tərəfdarı olan sarışın, ipək təbiətli, ali məktəbdə böyük həyat təcrübəsi keçən bu xoş sima kişi ayağa qalxdı, əllərimi möhkəm sıxıb dedi:

– Professor, getdiyin rayon qan çanağıdır, özünü oda atmısan, sadəcə səhhətinin ucbatından naəlac qalıb gedirsən, neynək, bu da bir tale qismətidir, kömək göstərəcəm, indiyə kimi nə cür işləmisənsə, elə də işlə. Çox fanatlıq etmə, səhhətini də gözlə, yerlin Həsən bəy Zərdabi də sənin kimi xalqın, elmin, maarifin fanatı olaraq yaşadı, nadanlara qurban oldu.

Şənbə günü idi, nazir iki saatdan sonra Heydər Əliyev adına Beynəlxalq hava limanında olmalıydı. Gülərüz nazirə səfərində uğurlar dilədim. Həftənin birinci günü Prezident aparatında üç şöbədə söhbətdən keçib səhəri yeni təyinat aldığım rayona getdim.

İyulun qızmar od saçan bir günündə işə başladım. Şöbə əməkdaşlarından üç-dörd nəfərdən savayı qalanları məzuniyyətdəydilər.

– Hə, Qədirli, deyəsən, ucundan tutub ucuzluğa getdim, sən Allah səni yordum?

– Yox professor, nə danışırsan, eyib deyil, sizin söhbətinizdən yorulmaq olar?

Bədəlbəyli xanımını səsləyib çayların təzələnməsini xahiş etdi.

– Qədirli, bizə konyak olmaz, gəlsənə bir qurtum viski içək.

– Professor, viski də təzyiqimizi qaldırar, çay içə-içə meyvəmizi yeyək, başına gələnləri danış. Görüm səni kim, kimə, necə qurban verdi?

– Rayonda çox hörmət-izzətlə işləyir, Allah rizasına, nəinki pedoqojilər, hətta rayon ictimaiyyəti xatirimi əziz tuturdu. Gəncliyimdə rayonda müəyyən vəzifələr tutub yüksək izzət sahibi olmuşdum. Nəinki rayon mərkəzi, bütün rayon əhalisi ağsaqqalımızı yaxşı tanıyırdı. Zarafat deyil, üç seçki Ali Sovetə deputat seçiləsən, camaata yarayasan, qulağın eşidə-eşidə hər gün, hər saat insanların alqışına tuş gələsən. İndiki qondarma, sifarişlə təyin olunan deputatları özləri üçün yaşayır, ailələrinin yox ey, nəvələrinin gələcəyi üçün sərvət toplamaqla məşğuldurlar. O vaxtlar belə işlər ağıla da gəlməzdi, ay professor.

Az müddətdə, orijinal metodiki bir yol seçib elmi yığıncaqlar, metodiki toplantılar, seminarlar, iki böyük elmi konfrans da keçirdim. Ali məktəblərə qəbul olunan məzunların sayının çoxaldılması qarşımda duran problemlərdən idi. Yatdı yox idi, gecəli-gündüzlü təhsilin səviyyəsinin necə qaldırılması yollarını arayır, fikirləşərək yenilik axtarıb tapmaq və tətbiq etməklə məşğuldum.

İcra başçısı da əvvəllər əmək təlimi müəllimi olmuş, boyunun yarısı yerin altında, yarısı üstündə olan, sözünün əvvəli ilə axırını unudan bir bivec idi. Dünyada dərd-səri, amalı iki şey idi: nə yolla olsun milyonlar toplamaq, gözəl qadınları özünə ram etmək.

*(Davamı 15-ci səhifədə)*

# QURBANLAR

*(Əvvəli 14-cü səhifədə)*

Kənd rayonunun əhalisi şoka düşmüşdü. Bir-iki dəfə apardığı yığıncaqlarda danışığını eşidib özümü söymüşdüm ki, bu lənət olmuş savadsız, simasız mənliyi olmayanla necə işləyəcəm? Təkbətək söhbətlərdə zənnimdə aldanmadığımı duydum. Belə juliki tarix yetişdirməmişdi. Köpəkoğlu elə bil Dəccal idi. Hər çıxışında da yuxarıdakı ilə bütün rayon əhalisini hədələyirdi. İnsanlar zülmət içində, zillətdə yaşayırdılar. Adicə məruzə etdiyi mətni üzündən düzgün oxuya bilmirdi, elə iclasın gedişində vərəqləri kənara qolazlayıb çıxışı yazan, qupquru qurumsağa dönmüş, mürdəşirə oxşar müavinə böyük yığıncaqlarda dişinin dibindən çıxanı deyir, nalayiq sözlərlə təhqir edirdi. Rayon ağsaqqalları danışırdılar ki, bu zavallı millət lənətlənib, bu bəla Allahdan gəlib ki, bu "idyot" zatı danışdıranda bilməyiblər ki, belə savadsız, debil gedib camaatla necə işləyəcək?

Şöbə müdirliyinə təsdiqdə nazir müavinə daxili telefonla tapşırdı ki, professor Bədəlbəylini universitetin dekanlığından rayonlarına təhsil şöbə müdiri göndərirəm. Məktəblər idarəsinin rəisinin qəbulunda olmasına lüzum yoxdur. Kifayət qədər təcrübəli, tanıdığım alimdir.

Nazirin otağından çıxıb müavinin yanına keçəndə həmin şöbə müdiri qıpqırmızı, pörtmüş halda oturmuşdu. Sən demə, nazir müavinlə telefonla danışanda dediyi sözləri eşidib şəninə dəyib ki, nə olsun professordur, mənim də qəbulumdan keçməlidir. Müavin gülərüzlə əl tutub təbrik etdi. Koramal baş, üz-gözündən yağ daman idarə rəisi, ora professor yeri deyil, - deyəndə mən də tutarlı, həm də sancılı cavabla sözümü dedim.

Bu nazirlə az işlədim.Yeni nazir iki il olardı ki, işləyirdi. Bir neçə məclisində iştirak edib çıxış etmişdim. İnsafən o, yenilikçi, gənclərə üstünlük verəndi. Sadəcə ətrafındakı gənclər keçmiş qoca qurdlardan fərqli olaraq təcrübəsizdilər. Təbii ki, bütün bu işlərin düzəlməsinin zamana ehtiyacı var idi.

– Hə, Qədirli, nazirlikdəki bir neçə yekəboyun rüşvətxorlar nazirə mənim Prezident aparatında tələbə yoldaşım olduğunu bildiriblər. Nazirliyin gənc, aparıcı, məsul işçilərindən biri görüş vaxtı məni nazirliyə işə dəvət etdi. "Təcrübəli, savadlı alimsiniz, nazirliyin sizin kimi kadrlara ehtiyacı var", - dedi. Ani fikirləşdim, nazirin iştirak etdiyi iki toplantıdakı çıxışımı yada saldım. Anladım tapşırıq nazirdən gəlmişdi.

– Nihad müəllim, bağışlayın, təkliflərinizi məmnuniyyətlə qəbul edərdim. Sadəcə, bu işə səhhətimlə - hava çatışmazlığı ilə əlaqədar rayona üz tutmuşam.

– Professor, Bakı ətrafı – Bilgəhdə, Höküməlidə və s. yerdə ev tutarıq, yəqin ki, xidməti maşınınız da olacaq.

– Yox Nihad müəllim, qorxuram, yenə hava çatışmazlığından əziyyət çəkəm.

Moskva və Təbriz həkimlərinin doğulduğum məkana getməsən yaşamaq ehtimalın çox azdır sözləri kino lenti kimi gözlərim önündən keçdi və Nihada bunları dedim.

Bu söhbətdən xeyli vaxt keçmişdi. Bir toplantıda metodiki yanaşma ilə əlaqədar elmi-nəzəri arqumentlərlə koramal baş idarə rəisini susdurdum. Baş ağrısından əziyyət çəkən ilanlar kimi başını o yan, bu yana əyib susdu. Çünki tutarlı, nəzəri faktlar qarşısında aciz qalmışdı.

Qədirli, bir dəfə də iki nəfərdən ibarət rayona gələn yoxlamaları naşılıqda, işi bilməməkdə suçlamışdım.

Bütün bunların nazirə ötürülməsini, təbii ki, hər fikir və sözü özlərinə lazım olan kimi don geyindirərək çatdırılmasını, arayışda sətiraltı və ya aşikaranə bildirilməsini intuisiyam mənə diktə edirdi.

Sən demə nazir də başqa qrupun üzvü imiş və mənim aparatdakı tələbə yoldaşımla yola getmirmiş. Bax beləcə, işin qızğın vaxtında nazir icra başçısına məktub göndərdi ki, şöbə müdirinin işdə qalmasını məqsədə müvafiq hesab etmirəm. Üç gündən sonra, ikinci dərəcəli şəkər (halbuki, şəkər xəstələrinin işdən uzaqlaşdırılması Prezident sərəncamı ilə yolverilməzdir), açıq ürək əməliyyatı keçirmiş şəxs kimi ərizəmi verib işdən çıxdım. Amma tələbə yoldaşım mənə demişdi ki, bir-iki dövlət tədbirində nazirimizlə bir stol arxasında oturarkən bildirmişəm ki, o rayonun təhsil şöbə müdiri ilə tələbə yoldaşıyıq. Regionlaşmada onu nəzərə al, professordur, on iki kitabın müəllifidir.

Sən demə bu tapşırıq, xahişlər də naziri qıcıqlandırır, əsası da odur ki, bu məmurların hər ikisi bir-birinə əks qütb olan, saray çarpışmalarında canavar kimi ağız-ağıza yatanlar imiş.

Bax beləcə, Qədirli, mən də oğlum kimi saray çarpışmaları deyim, yoxsa kreslo davası deyim, hər nəyəsə qurban getdim. Rayonda başçının bir mamarozası vardı. Bahalı fahişələrdəndi. Başçı onu təhsilə müdir təyin etdi.

Hə, Qədirli, təzə çay gətirilib, bir qurtum al. İndi çıxılmaz vəziyyətdə qalmışam, canımla döyüşdə qaldığım bir vaxtda, öz dərdim mənə azmış kimi, oğlumun işsizliyi, dörd məktəbli uşağının taleyinin necə olacağı barədə fikirləşirəm Bilmirəm nə edim? Köpəkbalıqlarının (Akula) döyüşündə xırda balıqların ölümü nə asan və acınacaqlı, bir anın içərisində baş verirmiş. Allah özü imdadımıza yetişsin.

Amin! Amin! Bədəlbəyli, - deyə Qədirli dərindən ah çəkdi.

***BAKI, 2019***